# YAŞAYAN MUSA YAQUB

...Musa Yaqub üçün dəyirman təkcə taxılı una, kəpəyə çevirən fırlanan daşlar, bu daşları hərəkətə gətirən axar su, pərlər, şingədən demək deyil. Dəyirmanın fırlanan oxları həm də bir-birini əvəz edən zəmanələrdi, bərəkətdi, inkişaf və tənəzzüldü, çətin günün dayağıdı, insanın yol yoldaşıdı, mərdi-namərdi ayıran sınaq meydanıdı, tarixin daş yaddaşıdı...

- Ağır daşlar yandı, fırlat...

Davamı video-materialda:

Musa Yaqub təbiətlə danışır deyirdilər. Təbiət hamımızla danışır. Baxır kim onu eşidə, oxuya, dinləyə bilir?! Bax, bu Musa Yaqub duyğulu, Musa Yaqub fəlsəfəli poeziyanı anlamaqdı yəqin ki...



- Ağacda quşların yuxusu baldı,
Sığınıb budağın yarpaqlarına
Arılar elə bil qapqara xaldı,
Yapışıb güllərin yanaqlarına.

Çağdaş Azərbaycan poeziyasının böyük şairinin yaradıcılığı təkcə təbiət şairi olmaqla bitib-tükənmirdi... Aramızda bu xüsusda təxminən belə bir mükalimə olmuşdu:

- "Taleyin qisməti"ndən qaça bilməyən,
"Mən yansam, sən buna məhəl qoymasan,
Görən harayıma ölüm çatarmı",
Yaxud
Üstündə gör neçə gözün hədəsi,
Götürmə bu boyda günahı, yeri.
Yeri get Allahın xoşbəxt bəndəsi,
Mən kimi bəndənin allahı, yeri -

-kimi sevgi notlarını daha sərrast söyləyən Musa Yaquba nədən sevgi şairi yox, təbiət şairi dedilər sualıma cavab olaraq demişdi:- Mənim haqqımda çox yazıblar ki, təbiət, vətəndaş, sevgi şairidir filan, əslində bunlar bir-birilə əlaqəlidi. İnsan özü də təbiətdi də. Elə ona görə mən şeirlərimdən birində yazmışam ki, "nə hal varsa cəmiyyətdə, onu gördüm təbiətdə". Bəs niyə yazanda başlayırlar qələm qaşdan, alma yanaqdan, büllur gözdən? Hamısı təbiət lövhələridi də elə. Qələm qaşı, büllur gözü deyən SÖZ-ün özünü də təbiətə bənzədirlər. Fərq yalnız yanaşmadadı. Bəziləri, təbiəti çox istəyir, bəziləri məhəbbəti, bəziləri siyasəti...

Söhbətin bu məqamda açıldığından istifadə edib fürsəti fövtə vermədən onu da soruşmuşdum ki, Musa müəllim, siz daha çox sözün bədii istiqamətini vurğuladız. Bəs sözün ictimai yükü, çəkisi? Yəni Musa Yaqubun məsələn, "Bir günah sənindir, bir günah mənim" şeirinin ictimai yükü olmasaydı, o nə bu qədər cəlbedici, nə də yəqin ki yaşarı olmayacaqdı...

Cavab vermişdi ki, şair şeiri yazanda düşünmür onun ictimai yükü olsun. Sən fikrini deyirsən, narazılığını, haqqını, gileyini dilə gətirirsən. Havayı yerə söz demirsən axı. Dediyin metaforalarsa sözün təsirini, çəkisini artırır.

Bu əsnada söhbətimizə nöqtə qoyan "Cəmiyyətin, təbiətin qayğılarını ədəbiyyat çəkməyə borcludu, yoxsa məhkumdu və gözəl şeirlər necə yaranır?" suallarına birmənalı "Məhkumdu. Bunsuz mümkün olmaz. Borclu deyil, məhkumdu. Çünki taledən gəlir bu yükü çəkmək. O işi yerinə yetirməlidi ədəbiyyat. Borclu olmaqsa o deməkdir ki, bu sənin vəzifən olanda borclusan.- deyə cavab vermişdi. Gözəl şeirsə metaforanı yerində işlətməyi bacaranda doğulur. Onun metaforanı müqayisəsi isə çox maraqlı alınmışdı. Söyləmişdi onların kəndi BuynuzdaCılğı deyilən bir at varmış. Ömründə tərk götürməzmiş.Amma o biri ağ at çox rahat tərk götürərmüş.Şairin müqayisəsinə görə,bir az mübaliğəli desək,gərək metaforanı yerində işlədə biləsən ki, söz də tərk götürsün, biri digərinə uyuşsun. Bax belə:

- Leyləklərin çöp yuvası boş qalıb,
Payız gəlib, bahar gedib, qış qalıb.
Göy çəməndə ocaq yanıb daş qalıb
Bu dünyanın qara daşı göyərməz.

...Klassik şairimiz Xaqanini çox sevirdi Musa Yaqub. Xaqaniyə olan sevgisi onu sövq etmişdi məşhur "Dəyirman" poemasını yazmağa. Xaqaninin "bənzəyir kündə ayağımda dəyirman daşına, qanlı göz yaşımla işlər bu dəyirmanın mənim" beyti açar olmuşdu poemaya. Amma bütövlükdə dəyirman mövzusu onun yaradıcılığından bir ana xətt kimi keçmiş, bu mövzuda "Köhnə dəyirmana sözüm" və "Un işığı" poemalarını da yazmışdı. Musa Yaqub üçün dəyirman təkcə taxılı una, kəpəyə çevirən fırlanan daşlar, bu daşları hərəkətə gətirən axar su, pərlər, şingədən demək deyil. Dəyirmanın fırlanan oxları həm də bir-birini əvəz edən zəmanələrdi, bərəkətdi, inkişaf və tənəzzüldü, çətin günün dayağıdı, insanın yol yoldaşıdı, mərdi-namərdi ayıran sınaq meydanıdı, tarixin daş yaddaşıdı...

- Ağır daşlar yandı, fırlat.
Bu çərxi-dövrandı fırlat.

Musa Yaqubun çoxşaxəli yaradıcılığının boy sırasında şairin Qarabağa, şəhidlərə, yurd nisgili, İkinci dünya savaşı zamanında xalqımızın düçar olduğu bəlalara həsr edilən xeyli nümunələr indi oxucuların ixtiyarındadır. Sadə insanların öz dillərində iztirablarını, qayğılarını bu ədəbi nümunələrdə ifadə etməsi isə əsərlərin mahiyyətini çox yüksəklərə qaldırıb. Musa müəllimin dərin mənalı şeirlərinə bir sıra musiqilər də yazılıb. Onlardan ikisini sizlərin diqqətinə çatdırmaq istəyirəm. "Mənim dərdlərimin ayaqları var" kimi artıq el dilində daşlaşmış ifadəni özündə yaşadan "Taleyin qisməti" şeirini Azərbaycanın xalq artisti Zeynəb Xanlarova nota köçürərək təkrarsız bir mahnı bəstələyib. İstedadlı musiqi adamı Rövşən Nicatsa yurd nisgilli "Həsrət adası" şeirini gözəl, liriktonlu musiqi əsərinə çevirib.

..Ruh adamı, ruh şairi kimi qəlbimizdə yaşayan Musa Yaqubun İNSAN-TƏBİƏT-CƏMİYYƏT üçbucağında özünə yer etmiş dəyərli nümunələrini sadalamaqla qurtarmaq mümkünsüzdü. Təbiətin gözəlliyi, cəmiyyətin çatışmazlıqları, sonucda İNSAN amilinin tərbiyəsi və daha nələr...

Dünya qəribə dünyadı
Həm gətirir, həm aparır.
O quşa dəymə daş atan,
Balasına yem aparır.

Və nəhayət... 7 may 2021-ci il... Musa Yaqubun 84 yaşının tamamına üççə gün qalmış cismən ölüm xəbəri... ...elə bildim bütöv bir epoxanı itirdik. Təsəllimiz var...həyat sonsuz deyil...amma Musa Yaqubdan bir də gəlməyəcək! Musa Yaqubun yeri doldurulmayacaq! Düzdü, yeni yazarlar da var, yeniləri də doğulacaq. Amma o dəsti-xətti, o təkrarsız ədəbi nümunələri və bu yaradıcılığı başdan-başa tamamlayan, şahidi olduğum İNSANİ KEYFİYYƏTİ bir vəhdətdə cəmləşdirə bilən onun kimi ədib dünyaya gəlməyəcək...

...Deyirlər ədəbiyyat tarixi yaxşı mənada təqib eləyir. Bu həqiqətdi. Mən Musa Yaqubun beş kitabının redaktoru olmuşam. Onun yaradıcılığının əsas motivlərini və möhtəşəm məzmunlu ədəbi nümunələrini demək olar ki, əzbərdən bilirəm. Onun yaradıcılığını öz qeydlərimdə birmənalı olaraq "Azərbaycanın gerçək tarixi" adlandırmışam. Bu xalqın tarixini, mədəniyyətini, sosial durumunu onun qədər dərindən dərk edib işıqlandıran ikinci bir şair görməmişəm. İnsanda nə qədər VƏTƏNDAŞLIQ TƏƏSSÜBKEŞLİYİ - AZƏRBAYCANÇILIQ dəyərlərinə sevgi və hörmət ola bilər! Bu dəyərləri öyrənmək istəyənlər üçün ən böyük müəllim elə yaradıcılığa müəllimlikdən başlayan Musa Yaqub və onun əbədiyaşar poeziyasıdır.

- Ağırı, yüngülü yerbəyer eylər,
Bu dünya özü bir daş-tərəzidir.

Musa Yaqub bizi cismani tərk etməklə yaddaşlardan silinəcək şəxsiyyət deyil. Musa Yaqub zamanında və zamanından sonra da qiymətini, dəyərini artıra-artıra gedən nəhəng bir simadı. Azərbaycan durduqca yaşayacaq bir sima...deməli sonsuza qədər!..

- Bəlkə də borcundan çıxmadım, Vətən,
Ömür bahar deyil, bir də qayıtsın.
Ölsəm də qoynunda qoy ölüm ki mən
Çürüyüm, bir ovuc torpağın artsın.

Allah sənə rəhmət eləsin, böyük ustad! Dünyamızda qoyub getdiyin işıq məzarını da, axirət dünyanı da nura qərq edər, inşallah! İnsanlığa, milli təəssübkeşliyə xidmət üzərində qurulan ömür və yaradıcılıq taleyin sənin axirətinin də, axirətdən sonra dünyamızda əbədiyaşarlığının da müqəddəratıdır!

Biz ayrılmırıq. Sən əbədi bizimləsən!..

Sadəcə:

- Dünyanın zəmisi heç imiş demə,
Dəryanın gəmisi köç imiş demə...

Onun barəsində keçmiş zamanda danışmaq çox çətindi. Elə buna görə hələ də xatirələşməyən, Xalq şairimiz, ölümsüz Musa Yaqubun ruhuna hörmətlə.



*Nəzirməmməd ZÖHRABLI*